**Nadir İsmayılov**
*Bakı Dövlət Universiteti, Biblioqrafiyaşünaslıq kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
nadirismayilov@bsu.edu.az
**Əlyusif Məmmədov**
*Bakı Dövlət Universiteti, Biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi*
aliyusifmammadov@bsu.edu.az

**UOT 025.5:002.5 + 655.59:027.021**

# YENİ MİNİLLİKDƏ AZƏRBAYCAN MİLLİ KİTABXANASININ NƏŞRLƏR SİSTEMİ, ONUN TƏRKİBİNDƏ BİBLİOQRAFİK NƏŞRLƏRİN MÖVQEYİ VƏ XÜSUSİYYƏTLƏRİ

*Məqalədə 2000-2010 cu- illərdə Azərbaycan Milli Kitabxanasının nəşriyyatçılıq fəaliyyəti təhlil edilmişdir.Mövcud fakt və mənbələr əsasında Milli kitabxananın onillik fəaliyyətinin nəticəsi olan informasiya resurslarının tiroloji və statistik elmi mənzərəsi yaradılmışdır.Eyni zamanda Milli kitabxananın nəşriyyat fəaliyyətinin təkmilləşdirilməsinə dair tövsiyələr verilmişdir.*

*.Açar sözlər:* Milli kitabxana, nəşriyyatçlıq fəaliyyəti , informasiya resursaları, statistik təhlil

**Giriş.** Kitabxanalar sivilizasiyanın formalaşmasında, insan fəaliyyətinin bütün sahələrininn inkişafında mühüm əhəmiyyətə maliikdir. Cəmiyyəti ilkin sənədlərlə, və həmin sənədləri əks etdirən biblioqrafik informasiya ilə təchiz edən bir ictimai institut olmaqla müasirv kitabxanalar sənəd-kommunikasiyalar sisteminin tərkibində həm kommünikativ, marifçilik, pedaqoji, mədəni və bir sıra digər funksiyalar yerinə yetirir. Kitabxanaların tarixi inkişafə nəticəsində ictimai tələbatın təsiri altında təkamül etmiş və onların bir möx növləri meydana gıəlmişdir ki, bunlardan biri də milli kiatabxanalardır. Dünyanın bütün mədəni ölkələrində olduğu kimi, Azərbaycanda da kitanxanaların müxtəlif tipləri, o cümlədən, Milli Kitabxana yaranmışdır. Kitabxanaların, xüsusən iri kütləvi, elmi və xüsusi kitabxanalar öz funksiyalarını yerinə yetirmək üçün həm də nəşriyyatçılıq fəaliyyətini yerinə yetirərək müxtəlif növ və təyinatlı nəşrlər tərtib edərək buraxırlar. Azərbaycanın əsas kitabxanası olmaqla, Milli Kitabxana yaranmasının erkən dövrlərindən başlayaraq hıəmişə nəşriyyatçılıq fəaliyyəti ilə məşğul olmuşdur. Həmin nəşrlərin tərkibi, onların zaman baxımından dinamikası elmi problem kimi diqqət cəlb edir və öyrənilməsi Milli Kitabxananın fəaliyyətinin tədqiqi üçün böyük əhəmiyyət daşıyır.

**Əsas hissə.**

Qədim zamanlardan başlayaraq müasir dövrə qədər cəmiyyətin sosial informasiya daşıyıcısı olan ən müxtəlif növ ilikin sənədlərlə, ilk növbədə onların ən geniş yayaılmış növü olan ictimai istifadə üçün nəzərdə tutulmuş mətbu sənədlərlə təminatı kitabxanalar tərəfindən həyata keçirilir. Zaman keçdikcə, in-



sanların kitabxananın fondunu təşkil edən mətbu sənədlərin ən geniş yayaılmış növü olan kitaba və digər sənədlərə olan ehtiyaclarının artması və bir sıra digər amil və səbəblər bir ictimai təsissat kimi kitabxanaların təkamülü nəticəsində bu təsisatın yeni-yeni tipləri meydana çıxıb inkişaf etmişdir. Həmin səbəblərdən xüsusilə kitabxananın təyinatı, onun fondunun tərkibi, təsis edilmə qaydası, mülkiyyət forması, xidmət göstərilən istifadəçilərin kateqoriyaları, hansı tip yaşayış məntəqəsində yerləşməsi, hansı istehsalatın strukturuna daxil olması, regionun kitabxana sitemində yeri, elmi müəssisələr sitemində kitabxananın yeri və digərləri qeyd edilə bilər (3, s. 10 ), Bu səbəblərin təsiri ilə kitabxanaların bir çox tipləri yarandı ki, onlardan biri də milli kitabxanalardır. "Azərbaycan kitabxana ensiklopediyası" milli kitabxanaya "universal elmi kitabxananın tiplərindən biri, ölkənin baş kitabxanası" kimi tərif verir. (.1,433 ). tərifdən göründüyü kimi, milli kitabxana özündə həm universal kitabxana, həm də elmi kitabxana əlamətlərini daşıyır. Burada "universal kitabxana" deyərkən həmin kitabxananın bütün elm və bilik sahələrinə dair sənədləri əhatə etməsi nəzərdə tutulur. "Elmi kitabxana" deyərkən isə o xüsusiyyət nəzərdə tutulur ki, belə kitabxana elmi müəssisələrin və ya elmi-tədqiqat fəaliyyəti ilə məşğul olan ayrı-ayrı şəxslərin ilkin sənəd və biblioqrafik informasiya təminatını həyata keçirməyə imkan verən sənəd fonduna, soraq-biblioqrafiya aparatına, maddi-texniki imkanlara və belə bir xidməti həyata keçirməyə qabil olan yüksək hazırlıqlı kadr resurslarına malıikdir. Milli kitabxana irq, yaş, milli mənsubiyyət, ictimai mənşə, təhsil, peşə və s. əlamətlərindən asılı olmayaraq ölkənin bütün vətəndaşlarının üzünə açıqdır. Milli kitabxananın əsas əlamətlərindən biri də onun ölkənin baş kitabxanası olmasıdır ki, bu status da hər bir ölkənin müvafiq rəsmi normativ sənədləri, qanunvericilik aktları ilə təsbit edilir.

Dünyanın ilk milli kitabxanası 1753-cü ildə yaradılaraq Britaniya Muzeyinin tərkib hissəsi kimi təsis edilmiş, əvvəllər Britaniya Muzeyi Kitabxanası, indi isə sadəcə olaraq Britaniya Kitabxanası kimi adlandırılan kitabxanadıdir. Bu kitabxananın kökündə isə ingilis zadəganı, həkim və təbiətşünas ser Hans Sloanın şəxsi kitabxanası durur. (7 ) .Bundan bir qədər sonra, Böyük Fransa İnqlabı zamanı, 1792-ci ildə ölkənin Məclisi vaxtı ilə fransız kralı V Karlın 1368-ci ildə Luvr saray;nda əsasını qoyduğu Kral Saray Kitabxanasını Milli Kitabxanaya çevirmək barədə qərar qəbul etdi. Bundan sonra tədricən dünyanın digər öilkələrində də milli kitabxanalar yaradıldı. (6).

Azərbaycanda statusuna görə müasir milli kitabxanaya uyğun gələn kitabxana ancaq sovet dövründə yaradılmışdır. O dövrdə sovet idelogiyası, dövlət siyasəti savad, mədəniyyət, elm, peşəkarlıq, siyası hazırlıq, tərbiyə üçün kitabxanaların müstəsna rolunu yüksək qiymətləndirir və planauyğun şəkildə ölkədə müxtəlif tipli, təyinatlı kitabxanalar sisteminin yaradılırdı. Belə sistemin vacib tərkib hissəsi hər bir müttəfiq və muxtar respublikanın mərkəzi (baş) dövlət kitabxanası idi. Tarixən Azərbaycanda belə bir kitabxananın yaradılaraq zəmanəmizə qədər gəlib çatmaması səbəbindən 1920-ci ildən başlayaraq respublika rəhbərliyi belə bir kitabxananın yaradılması istiqamətində işlərə

başladı. Belə ki, Milli Kitabxananın direktoru professor K. M. Tahirov arxiv sənədlərinə əsaslanaraq göstərir ki, ölkəmizdə Mərkəzi Dövlət Kitabxanasının yaradılması məsələsi ilk dəfə Azərbaycan SSR Xalq Maarif Komissarlığının 13 noyabr 1920-ci il tarixli 53 saylı iclasında müzakirə edilmişdir. Sonrakı dövrdə Komissarlıq tərəfindən aparılan lazımi hazırlıq işləri bitdikdən sonra 1923-cü ilin may ayının 23-də bu yeni kitabxana Azərbaycan SSR Mərkəzi Dövlət Kitabxanası kimi oxucuların üzünə açılmışdır. (2,7-11).

Mərkəzi Dövlət Kitabxanasının yaradılması ərəfəsində qəbul edilmiş sənədlərdə, hazırlanmış "Əsasnamə"də onun əsas fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdi. Bu normativ sənəddə Kitabxananın metodik, biblioqrafik istiqamətdə fəaliyyəti də öz əksini tapmışdı. Əlbəttə ki,. Kitabxananın bu istiqamətdə fəaliyyəti təkcə istehsalat proseslərinin təşkili, daxili metodik ehtiyaclara deyil, həm də onun respublikanın mərkəzi kiatabxanası statusundan irəli gəlməklə Kitabxanadan xaricə. Respublikanın digər kitabxanalarına doğru yönəlmişdi. Belə bir fəaliyyət isə labüd olaraq burada nəşriyyat fəaliyyətinin həyata keçirilməsini, burada tərtib edilən metodik, biblioqrafik, direktiv mahiyyətli materialların nəşr edilərək yayılmasını tələb edirdi.

Kitabxanada metodik istiqamətdə işlər onun struktur vahidi olan Kitabxanaşünaslıq kabinəsinin fəaliyyəti ilə əlaqədar idi. Belə ki, həmin kabinə 1930-cu illərin ikinci yarısında bir çox vacib materialları nəşr formasında tərtib edərək çap etdirmiş və respublikanın kitabxanalarına göndərmişdi. Bunlara misal olaraq "İkirəqəmli təsnifat cədvəli"ni, "Kənd kitabxanalarının işi", "Kütləvi kitabxanalarda oxuculara xidmət" və s. metodik vəsaitləri, "Azərbaycan SSR Rayon Mərkəzi Kitabxanaları haqqında Əsasnamə", "XMK kitabxanaçılıq idarəsinin Əsasnaməsi", "Azərbaycan SSR kənd kitabxanaları haqqında müvəqqəti Əsasnamə", "Kütləvi kitabxanalardan istifadə qaydaları" və s. göstərmək olar. Sonrakı illərdə də Kitabxananın nəşriyyat fəaliyyəti uğurla davam etdi və burada həm Kitabxananın öz ehtiyacları, həm də respublikanın digər kitabxanalarının ehtiyaclarını ödəmək üçün çox adda müxtəlif təyinatlı nəşrlər buraxıldı ki. bunların əksər hissəsini direktiv sənədlər, metodiki və biblioqrafik vəsaitlər təşkil edirdi. Kitabxananın yarandığı gündən XX əsrin sonuna kimi burada hazırlanıb nəşr edilən vəsaitlər barədə məlumatlar bir sıra tədqiqatçıların monoqrafiya və məqalələrində əksini tapmamışdır. Lakin təəssüf ki, indiyə qədər ayrıca bir mövzu kimi Kitabxananın nəşriyyatçılıq fəaliyyəti, burada buraxılan nəşrlərin müxtəlif aspektlərdə təhlili jheç vaxt xüsusi tədqiqat mövzusu olmamaışdır. Bu səbəbdən həmin maraqlı məsələyə diqqət yetirilməsi məqsədəuyğundur.

Onu da qeyd edək ki, 15 aprel 2004-cü il tarixində Azərbaycan Respublikasının Baş nazirinin qərarı ilə M. F. Axundov adına Azərbaycan Dövlət Kitabxanası milli kitabxana statusu aldı. Bu qərarın qəbul edilməsi dünya kitabxanaçılığında müasir tendensiyalara uyğun gələn zəruri bir qərar kimi qiymətləndirilə bilər.



Milli kitabxananın nəşriyyatçılıq fəaliyyəti, nəşr məhsulunun tərkibi, burada biblioqrafik vəsaitlərin mövqeyi və xüsusiyyətlərindən bəhs edərkən Milli Kitabxana tərəfindən bu istiqamətdə XXI əsrdən etibarən işlərə diqqət yetirmək zəruridir. Bizim fikrimiz, üçüncü minillik Azərbaycanda ictimai həyatın - bütün sahələrində kəmiyyət dəyişiklərinin keyfiyyət dəyişikliklərinə keçməsi ilə xarakterik olmuşdur. Ölkənin iqtisadi qüdrətinin artması, ictimai-siyasi strukturunun təkmilləşməsi, bütün sahələrdə inkişaf kitabxana fəaliyyətinə də öz müsbət təsirini göstərmiş, bu sahədə təkmilləşmə, əsaslı inkişaf baş vermişdir. Bu sözləri tam mənada Milli Kitabxananın fəaliyyətinə də aid etmək olar. Milli Kitabxana məhz bu dövrdə əsaslı struktur islahatları, həyata keçirmiş, informasiya texnologiyalarının ən yeni nailiyyətlərini, kitabxana işi sahəsində qabaqcıl metodları praktikada tətbiq etmiş, kitabxana proseslərinin kompleks avtomatlaşdırılmasını həyata keçirərək görülən işlərin sürət və keyfiyyətinin əsaslı şəkildə yüksəldilməsinə nail olmuş, istifadəçilərə xidmətin yeni, innovativ metodlarını tətbiq etmişdir, İndi Kitabxana öz elektron ilkin sənəd və biblioqrafik informasiya resurslarının həcminə, növ müxtəlifliyinə görə nəinki ölkənin lider kitabxanasına çevrilmiş, hətta yeni metod və texnologiyaları daha erkən zamanlarda tətbiq etmiş bir çox xarici ölkələ milli kitabxanaları ilə müqayisə edilə biləcək səviyyəyə yüksəlmişdir.

Təbii ki, bütün bu inkişaf labüd olaraq kitabxananın nəşriyyat fəaliyyətində də özünü büruza vermişdir. Apardığımız tədqiqatın daha kompakt olması üçün biz Milli Kitabxananın nəşriyyat fəaliyyəti və nəşriyyat məhsulu tərkibində biblioqrafik vəsaitlərin yeri və xüsusiyyəti məsələsi üzrə araşdırmanı ayrıca olaraq iki onillik mərhələni əhatə etməklə qruplaşdırmağı məqsədəuyğun hesab etmişik. Birinci mərhələdə Milli Kitabxanaın bu sahədə 2001-2010 illərdə, ikinci mərhələdə isə 2011-2020-ci illərdə həyata keçirdiyi öz əksini tapır və hər bir dövr üzrə tədqiqat ayrıca məqalədə öz əksini tapır. Qeyd edək ki, bu tədqiqat üçün istifadə edilən bütün faktiki məlumatlar Milli Kitabxanaın internet saytından götürülmüşdür.(5).

Milli Kitabxana tərəfindən 2001-2010 illərdə buraxılmış nəşrlər barədə ümumi informasiya aşağıdakı cədvəldə öz əksini tapmışdır.

***Cədvəl 1. 2001-2010-cu illərdə Milli Kitabxanada nəşriyyat fəaliyyətinin ümumi dinamikası***

| İllər | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Nəşrlərin ad üzrə miqdarı | 5 | 2 | 4 | 2 | 7 | 12 | 27 | 42 | 44 | 28 | 173 |
| Onillik üzrə həcmdə xüsusi çəki (%) | 2,89 | 1,15 | 2.31 | 1,15 | 4,05 | 6,94 | 15,6 | 24,28 | 25.43 | 16,18 | 100% |

Təqdim edilən rəqəmlər göstərir ki, yeni əsrin ilk dörd ilində Milli Kitabxananın nəşriyyatçılıq fəaliyyəti hələ çox zəif idi. Bunun da sadə izahı vardır. Həmin dövrdə Kitabxanada əsaslı islahatlara hazırlıq gedirdi, yeni informasiya texnologiyalarının tətbiqi ilkin mərhələdə idi, əksər iş yerləri hələ

kompüterlərlə təchiz edilməmişdi. Bu səbəbdən də nəşriyyat məhsulunun hazırlanması və buraxılışı hələ zəif idi. Təhlil edilən dövrdə nəşriyyat fəaliyyətinin ən zəif olduğu illər 2002 və 2004-cü illərdir ki, o zaman hər il cəmi iki adda nəşr çıxmışdı. Bu prosesin sürətlənməsi 2005-ci ildə başladı və növbəti üç ildə sürətlə artaraq 2009-cu ildə pik nöqtəyə-ildə 44 nəşrə qədər artdı. Lakin təəssüf ki, bir sıra inzibati çətinliklər üzündən 2010-cu ildə bu rəqəm xeyli azalaraq 28-ə çatdı. Beləliklə, təhlil edilən dövrdə Kitabxanada nəşriyyat fəaliyyətinin ən zəif və ən yüksək dövrü arasında fərq 22 dəfədir ki, bu da nisbətən kiçik zaman fasiləsi ərzində Kitabxanada həmin fəaliyyətin çox intensiv şəkildə genişlənməsinə dəlalət edir.

İndi isə bəhs edilın dövrdə Milli Kitabxananın nəşriyyat məhsulunun tərkibinə və bu göstəricinin illər ərzində dəyişməsi məsələsinə diqqət yetirək. Əvvəlcə bu məhsulun tərkibinin nəşr növü və istifadəçi təyinatı baxımdan çeşidinə diqqət yetirək. Əgər biz bu məhsulu QOST dövlətlərarası standartlar sistemınə daxil olan QOST 7.60-2003 "Nəşrlər. Əsas növləri, terminlər və təriflər" standartının tələblərinə uyğun olaraq təhlil etsək, görərik ki, burada nəşrlər müxtəlif əlamətlərinə görə fərqləndirilərək təsnifləşdirlir. Kitabxananın nəşrlərinin təsifləşdirilməsi üçün həmin əlamətlərdən ***nəşrlərin tərkibində olan informasiyanın xarakteri əlaməti*** əsasında təsnifləşdirlməsi daha məqsədəuyğundur. (4,C. 12-19.) Bu əlamətə görə nəşrlərin aşağıdakı növləri fərqləndirilir. (Qeyd edək ki. sonradan Kitabxananın nəşriyyat məhsulunun cədvəl əsasında təhlilini asanlaşdırmaq məqsədi ilə biz hər bir nəşr növünü şərti abbreviatura ilə içarə etmişik).

1. Elmi və elmi-kütləvi nəşrlər (EEKN)
2. Rəsmi və normativ-istehsalat nəşrləri (RNİN)
3. İstehsalat-praktiki nəşrlər (İPN)
4. Tədris nəşrləri (TN)
5. Soraq və reklam nəşrləri (SRN)
6. Ədəbi-bədii nəşrlər (ƏBN).

Lakin nəşriyyat məhsulunun tərkibi təhlil edilən zamanı məlum oldu ki, əhatə etdiyimiz 10 illik dövr ərzində bu məhsulun tərkibimndə nə elmi və elmi-kütləvi nəşrlər, nə tədris nəşrləri, nə də ədəbi nəşrlər olmamışdır. Bu səbəbdən həmin məhsulu əhatə edən cədvəldə bizim bu növ nəşrləri əks etdirən bəndləri verməyə ehtiyac qalmadı Ancaq bunun əksi olaraq, həmin standartdın tərkbindəki qeyd ediklmiş təsnifatında əksini tapmayan, lakin Milli Kitabxananın fəaliyyətində mühüm mövqeyə malik **biblıioqrafik nəşrləri (BN)** biz bu sıralamaya də əlavə etməyi lazım bildik.

Nəzərdən keçirdiyimiz zaman çərçivəsində nəşr edilmiş 173 adda nəşri bu əlamətlər üzrə təsnifləşdirdiyimiz zaman aşağıdakı cədvəldə əks olunmuş mənzərə alınacaqdır.



***Cədvəl 2. 2001-2010-cu illərdə Milli Kitabxanada nəşriyyat məhsulunun illər üzrə və nəşrlərin tərkibində olan informasiyanın xarakterinə görə təsnifatı***

| İllər | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Nəşrlərin ad üzrə miqdarı | 5 | 2 | 4 | 2 | 7 | 12 | 27 | 42 | 44 | 28 | 173 | |
| Kitabxananın nəşrlərinin tərkibində olan informasiyanın xarakterinə görə təsnifatı | | | | | | | | | | | Cəmi/ faiz | |
| 1.RNİN | 1 | 1 | | 1 | | 1 | | | | 1 | 5 | 2,9 |
| 2.İPN | 2 | 1 | 4 | | 3 | 8 | 6 | 1 | 4 | | 29 | 16,7 |
| 3.SRN | | | | 1 | 1 | 1 | 1 | 1 | 1 | 3 | 9 | 5,2 |
| 4.BN | 2 | | | | 3 | 2 | 20 | 40 | 39 | 24 | 129 | 74,5 |

Kitabxananın nəşrlərinin tərkibində olan informasiyanın xarakterinə görə illər üzrə bölgüsünü əyani şəkildə təqdim etmək üçün diaqrama müraciət edək

**Diaqram 2. 2001-2010-cu illərdə Milli Kitabxanada nəşriyyat məhsulunun illər üzrə nəşrlərinin tərkibində olan informasiyanın xarakterinə görə təsnifatı dinamikası(illərə görə ad üzrə)**




2001-2010-cu illərdə Milli Kitabxanada nəşrlərinin onlarda olan informasiyanın xarakterinə görə tərkibinin dinamikası isə vizual olaraq aşağıdakı cədvəldə əks olunmuşdur.

**Diaqram 2. 2001-2010-cu illərdə Milli Kitabxanada nəşriyyat məhsulunun nəşrlərinin tərkibində olan informasiyanın xarakterinə görə növləri üzrə tərkibi)**



Kitabxananın nəşrlərinin tərkibində olan informasiyanın xarakterinə görə onillik ərzində növlər üzrə üzrə bölgüsünü əyani şəkildə təqdim etmək üçün diaqrama müraciət edək

**Diaqram 3. Kitabxananın nəşrlərinin tərkibində olan informasiyanın xarakterinə görə onillik ərzində növlər üzrə bölgüsü**




Təhlil etdiyimiz statistik informasiya əsasında söyləyə bilərik ki, Milli Kitabxananın nəşriyyat məhsulunun nəşrlərinin onlarda olan informasiyanın xarakterinə görə növləri üzrə dinamikası da rəvan olmamışdır və 2001-ci ildə 5 addan, 2008-ci ildə

Belə ki, nəşriyyat məhsulunun daxilində ən az xüsusi çəkiyə malik (2,9%) rəsmi və normativ-istehsalat nəşrləri cəmi 5 adla təmsil olunmuşdur ki, onların da yarısı öyrəndiyimiz dövrün ilk iki ilində (2001-2002) nəşr edilmişdir.

Xüsusi çəkisinə görə ikinci yerdə dayanan soraq və reklam nəşrləri cəmi 9 ada nəşrlə (5,2 %) təmsil olunmuşdur. Bu nəşrlər 2005-ci ildən başlayaraq çıxmağa başlamışdır və hər il çıxan nəşr "Əlamətdar və tarixi günlər təqvimi olmuşdur. Yalnız hesabat dövrünün sonuncu ilində bununla yanaşı əlavə iki adda nəşr çıxmışdır.

Nəşriyyat məhsulunun tərkibində ad miqdarı baxımından üçüncü yerdə duran nəşr növü isə istehsalat-praktiki nəşrlər olmuşdur. Kitabxanda bu növ üzrə buraxılan nəşrlərin əksər hissəsi metodik tövsiyyə və yaddaşlar olmuşdur. Tədqiq dövründə Kitabxana cəmi 29 adda nelə nəşr (16, 7%) buraxılmışdır. Milli Kitabxanada bu nəşr növü ənənəvi olaraq hələ sovet dövründən müntəzəm şəkildə hazırlanaraq nəşr edilir. Bu nəşr növü təkcə Milli Kitabxananın deyil, ölkənin bütün kütləvi kitabxananın mütəxəssisləri üçün nəzərdə tutulur və əsasən bu və ya digər mövzu və ya görkəmli şəxslərin həyata və yaradıcılığı üzrə kitabxanada işi necə təşkil etmək barədə tövsiyələr verir və həm də, mövzu üzrə tövsiyə edilən ədəbiyyatın biblioqrafik siyasını ehtiva edir. Bu nəşr növünün də buraxılmasında rəvanlıq olmamışdır. Belə ki, bu nəşrləri ən ox çıxdığı illlər 2006 (8 adda), daha sonra 2007 (6 adda), 2003-və 2009-cu



illər (hər il 4 adda) olmuşdur. Digər illərdə bu nəşrlər daha az adda çıəxmış, 2004 və 2010-cu illərdə isə heç çıxmamışdır.

Kitabxanaların nışrləri tərkibində ən geniş təmsil olunanan nəşr növü isə bibliorafik nəşrlər olmuşdur. Belə ki, öyrəndiyimiz dövr ərzində Kitabxanada 129 adda (ümumi nəşriyyat məhsulunun 74,5 faizi) bu növ nəşrlərdən ibarət olmuşdur. Onların buraxılmasının illər üzrə bölgüsü də maraq döğurur. Bu miqdarın illər üzrə azalan sırasına nəzər yetirsək görərik ki, bu nəşrləri ən çox çıxdığı il 2008-ci il olmuşdur (40 adda). Miqdar baxımdan sonrakı yerləri 2009-cu (39) və 2010-cu (24) illər tutur. Bigər illərdə bu rəqəm çox kiçik (2-3 adda), 2002-3004-cü illərdə isə 0 səviyyəsində olmuşdur. Bu rəqəmlər Milli Kitabxananın nəşrlər sisteminin zaman baxımdan dinamıkasını açır və belə deməyə əsas verir ki, tədqiq etdiyimiz dövrdə Milli Kitabxananın nəşriyyat fəaliyyəti dövrün əvvəlində az olmaqla artan dinamikə üzrə inkişaf etmiş, lakin dövrün sonunda, 2009-cu ildən sonra yenə azlmağa meylli olmuşdur. Bu da həmin dinamikanın təxminən sinusiodal xarakter daşıdığını söyləməyə imkan verir.

Bu təhlil belə bir yekun fikrə gəlməyə əsas verir ki, tədqiq edilən dövrdə Milli Kitabxananın nəşriyyat məhsulunun tərkibi Kitabxanada nəşrlərdə olan informasiyanın xarakterinə görə növləri baxımından ayrı-ayrı nəşr növlərinin miqdarına görə ranjir özrə düzülərkən belə bir ardıcıllıq alınacaqdır: Biblioqrafik nəşrlər -129 adda (74,5%), istehsalat-praktiki nəşrlər -29 adda (16,7%), soraq və reklam nəşrləri-9 adda (5,2%) və Rəsmi və normativ-istehsalat nəşrləri -5 adda (2,9%). Əgər nəzərə alsaq ki, istehsalat-praktiki nəşrlərin tərkibində biblioqrafik informasiya mühüm əhəmiyyətə malikdir və onları qismən də olsa biblioqrafik nəşrlərə aid etmək olar, Milli Kitabxananın nəşrlər sisteminin tərkibində biblioqrafik nəşrlərin aparıcı mövqeyə malik olmasını söyləmək mümkündür.

**Nəticə və elmi yenilik.**

Nəticə kimi qeyd edə bilərik ki, nəşrlərin növ müxtəlifliyi baxımından rənganərg olub, dörd növü-biblioqrafik, istehsalat-praktiki, soraq və reklam, rəsmi və normativ-istehsalat nəşrləri əhatə edir. Tədqiq etdiyimiz 2001-2010-cu illər ərzində Milli Kitabxanada 173 adda nəşr buraxılmışdır ki, onların da nöşr növləri üzrə tərkibi və ranjirində ali yerləri biblioqrafik nəşrlər -129 adda (74,5%) və istehsalat-praktiki nəşrlər -29 adda (16,7%) tutur.

Tədqiq etdiyimiz dövr ərzində nəşrlərin buraxılışının illər üzrə miqdarı da rəvan olmayıb.Belə ki ilk ildə 5 addan başlayaraq, 2010-cu ildə 28 adadək dəyişmişdir. Bu zaman minimum səviyyə-ildə 2 adda-2002və 2004-cü ildə, pik səviyyə isə -44 ada, 2008-ci ldə müşahidə edilmişdir. Məqalənin elmi yeniliyi burada ilk dəfə olaraq Milli Kitabxananın fəaliyyətinin nəşriyyatçılıq istiqamətinin müəyyən dövr ərzində tədqiq edilməsi və nəzərdən keçirilən dövrdə burada buraxılan nəşr məhsulunun növlər üzrə tərkibi və zaman baxımından dinamikası təhlili olunmuşdur. Bu tədqiqatın Milli Kitabxanaın qeyd edilən istiqamətinin təkmilləşdirilməsi, Kitabxananın nəşriyyat işinin cari və perspektiv planlaşdırlmasının elmi əsaslarla qurulması üçün praktiki əhəmiyyəti vardır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Azərbaycan kitabxana ensiklopediyası.-Bakı, 2015.- 632 s.).
2. Tahirov K. M. Dünya milli kitabxanaları. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası: Dərs vəsaiti.-Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2013. -212 s.
3. ГОСТ 7.60-2003. Издания. Основные виды, термины и определения. – Москва, 2003.- 60 с.
4. Сокольская Л. В. Типология библиотек: учебное пособие. –Челябинск, 2011.-95 с. С. 10

**İnternet resursu**

5. www.anl.az
6. https://en.wikipedia.org/wiki/Biblioth%C3%A8que_ nationale_de_France
7. https://www.bl.uk/about-us/our-story/history-of-the-british-library

**Надир Исмаилов, Алиюсиф Мамедов**

**Система изданий Национальной библиотеки Азербайджана в новом тысячелетии, место и особенности библиографических изданий в ней**

**Резюме**

*В статье анализируется издательская деятельность Национальной библиотеки Азербайджана в 2000-2010 гг. На основе имеющихся фактов и источников создается тирологическая и статистическая научная картина информационных ресурсов, которая является результатом десятилетней деятельности Национальной библиотеки. При этом даны рекомендации по совершенствованию издательской деятельности Национальной библиотеки.*

***Ключевые слова:*** Национальная библиотека, издательская деятельность, информационные ресурсы, статистический анализ.

**NadirIsmailov, Aliyusif Mammadov**

**Publication system of the National Library of Azerbaijan in the new millennium, place and features of bibliographic publications in it**

**Abstract**

*The article analyzes the publishing activities of the National Library of Azerbaijan in 2000-2010. Based on the available facts and sources, a tyrological and statistical scientific picture of information resources is created, which is the result of a decade of activity of the National Library. At the same time, recommendations were given for improving the publishing activities of the National Library.*

***Key words:*** National Library, publishing, information resources, statistical analysis.

**Rəyçi:** t.ü.e.dok.,prof. X.İ.İsmayılov